Nazim HÜSEYNLİ

## UYĞURLAR

Uyğurlar....Qaynaqlarda göstərildiyi kimi Hun imperiyasının varlığında dəyərli bir rol oynayan, Göytürk imperiyasının yaranmasında mühüm xidmətləri olan, Uyğur imperiyasını yaradaraq ətrafdakı dövlətlərdən xərac alan, bu gün də qürur doğuran bəzi işlərin yiyəsi olan bu xalq tarix boyu azadlığını, müstəqilliyini, dövlətçiliyini qorumaq üçün mübarizə aparmışdır. 1759-cu ildən 1862-ci ilə kimi üst-üstə 42 dəfə ölüm-dirim mübarizəsinə qalxan, üsyan qaldıran uyğurlar 1863-cü ildə nəhayət mancurları ölkədən qovmuş, Uyğur dövlətini yaratmışlar. 1876-cı ildə Çin-Mancur qoşunları birgə hücuma keçib ölkəni işğal etmişlər. Artıq bu dönəmdən uyğurlar Çinin tabeliyinə keçmişdir. Xalq kimi həmişə varlığına yiyə durmaq istəyən uyğurlar bu yolda mübarizədən heç vaxt əl çəkməmişlər. 1933-cü ildə Birinci Şərqi Türküstan dövlətini, 1943-cü ildə isə İkinci Şərqi Türküstan dövlətini qurmuşlar. SSRİ ilə Çinin anlaşması nəticəsində hər iki hərəkat amansızlıqla yatırılmışdır. 1949-cu il işğalından sonra sonuncu Uyğur dövlətinin başçıları Çin dövləti tərəfindən 1952-ci ildə aldadılaraq təyyarə qəzasında məhv edilmişlər. 1949-cu ildən bu yana Çin Xalq Respublikasının idarəçiliyi altında olan Şərqi Türküstan 1,828 milyon kvadrat kilometrlik bir ərazidir. Bu torpaqlar kömür, neft ehtiyatları, qaz, qızıl, xrom, qalay, nikel, çox nadir metallar, kimyəvi duzlar və sairlə çox zəngindir. Çində uyğurların sayı rəsmi statistikaya görə 10 milyondan çox, bir sıra mənbələrin məlumatına görə 15 milyon, Ümumdünya Uyğur Konqresinin məlumatlarına görə 2010-cu ilin sonu etibarı ilə 20 milyon nəfərdir. 1 milyon uyğur digər ölkələrdə yaşayır. Uyğurlar çox mübariz xalqdırlar. Uyğurların 1953, 55, 57, 62, 67, 69, 70, 89 və 2009-cu illərdə Çinin müstəmləkəçilik siyasətinə qarşı etiraz aksiyaları olmuşdur. Onlar hər gün Çinin mərkəzi ərazilərindən adamların Sincan Uyğur Muxtar Vilayətinə köçürülməsinə, bu yolla əhalinin milli tərkibinin dəyişdirilməsinə etiraz edirlər. Çünki əvvəllər bu yerlərdə çinlilərin sayı 6 faiz olduğu halda indi 40 faizdən çoxdur və dövlət bu siyasəti davam etdirməklə bölgədə çinlilərin çoxluğunu təmin etmək istəyir. Son vaxtlar hökumət terrorçu böhtanları ilə uyğurlara qarşı şiddətləri gücləndirmişdir. İslam dininə qulluq edən uyğur türklərinin oruc tutmasının və digər ibadətlərini yerinə yetirməsinin qadağan olunması ilə bağlı üzücü xəbərlər gəlir. Bu zülmlərə rəğmən, uyğurlar Çin rejiminə qarşı mübarizələrini davam etdirirlər. Uyğurlar beynəlxalq miqyasda təşkilatlanmaqda və öz səslərini dünya ictimaiyyətinə çatdırmaqdadırlar. Bir neçə il qabaq mühacirətdə Doğu Türküstan dövləti qurulmuşdur. Uyğurların ən nüfuzlu təşkilatı Dünya Uyğur Konqresidir. Bu təşkilatın rəhbəri «uyğurların anası» kimi tanınan Rəbiyə Kaderdir.

15 milyon 1 milyardın içində,
Bir-birindən fərqli dildə və dində...
Təhqir, təzyiq, zindan, ölüm hər gündə,
Bezir, bezir uyğurlar!

Urumçidə nə var, nə yox bilmirik,
Yol çox uzaq, gedib, görüb gəlmirik,
Soraq pisdir, sevinmirik, gülmürük,
Əsir, əsir uyğurlar!

Kader ana, qədər belə yazıldı?
O güc-qüdrət, o şan-şöhrət azaldı?
Xəritələr zorla, qanla cızıldı,
Dözür, dözür uyğurlar?

Köləliklə sonsuz çöllər savaşda,
Kader ana neçə illər savaşda,
Bu yazını qorxmaz ellər savaşda
Pozur, pozur, uyğurlar?

Sürət əsri, gələcək yox ləngələrə,
Azadlığa çıxmaq üçün cənglərə,
Dirənməkçin basqılara, həngləre
Hazır, hazır uyğurlar!

Söylənilir dərdləri son illərdə
BMT-də, çox yayılmış dillərdə.
Yarasına məlhəm qürbət ellərdə
Gəzir, gəzir uyğurlar.

O qüdrəti, o şöhrəti de hanı,
Böyük Çinin gözdən uzaq ostanı...
Görən nə vaxt bağımsızlıq dastanı
Yazır, yazır uyğurlar?

* * *

Bir əsrdə 42 yol,
Üsyan edib bu xalq, bu el,
Savaşlara qoyubdu qol
uyğurlar!

Saqqal nədir, çadra nədir?
Səsi çıxan şillələnir,
Təpiklənir, güllələnir-
uyğurlar.

Gedən qatar olmayacaq,
İtər-batar olmayacaq,
Tarix udar olmayacaq
uyğurlar!

Çinə nisbət kiçik bir yurd,
Yol göstərər ona boz qurd,
Oğlu, qızı çox cəsur, mərd-
uyğurlar!

Düşmənini yoracaqdır,
Zəncirləri qıracaqdır,
Azad bir yurd quracaqdır
uyğurlar!

2015